**T Ü R K O L O G İ Y A**

**№ 1** **2026**

**https://doi.org/10.59849/2313-5204.2026.1.136**

*AZƏR TURAN (Əbilov )(Azərbaycan)* *

# Əli bəy Hüseynzadənin I Türkoloji Qurultayda məruzəsi, Qurultay günlərində yazdığı gündəlik qeydlər və Menzelin "Birinci Türkoloji Qurultay" kitabında Əli bəy Hüseynzadə barədə yazdıqları

## Xülasə

Məqalədə Əli bəy Hüseynzadənin I Türkoloji Qurultaydakı məruzəsi və Qurultay günlərində yazdığı gündəlik qeydlər təhlil olunur. Eləcə də alman türkoloqu Menzelin "Birinci Türkoloji Qurultay" kitabında Əli bəy Hüseynzadə barədə yazdıqları şərh edilir. Qurultayın fəxri rəyasət heyətinə seçilmiş Əli bəy Hüseynzadənin Türkoloji Qurultayın ideya əsaslarının hazırlanmasında müstəsna yerinin nədən ibarət olduğuna diqqət çəkilir. Əli bəy Hüseynzadə və Qurultayda iştirak etmək üçün onunla birlikdə Bakıya gəlmiş türkoloqların bu beynəlxalq elmi toplantının aparıcı simaları olduğu bildirilir. Eləcə də Hüseynzadənin gündəlik qeydləri ilə yanaşı, Menzelin də Türkoloji Qurultay barədə yazdıqlarına nəzər salınır. Əli bəy Hüseynzadənin Qurultaydan sonra İstanbulda İstiqlal Məhkəməsində verdiyi ifadənin əsasında o qənaətə gəlinir ki, əslində Əli bəy Hüseynzadə Qurultaydakı məruzəsində Atatürkün ideyalarını şərh etmişdir. Bu mənada məqalədən hasil olunan nəticə bundan ibarətdir ki, Türkoloji Qurultayın elmi mündəricəsi ilə yanaşı, onun ideoloji mahiyyəti daha dərindən araşdırılmalıdır.

**Açar sözlər:** *Menzel, Hüseynzadə, Türkləşmək, İslamlaşmaq, Müasirləşmək, Türkoloji Qurultay.*

Türkoloji Qurultay tədqiq olunduqca, Qurultayın ilk günündə onun Rəyasət Heyətinə fəxri üzv seçilən Əli bəy Hüseynzadənin Türkoloji Qurultayın ideya əsaslarının hazırlanmasında müstəsna yeri olduğu bütün aspektlərdə aydın görünür. Əli bəy Hüseynzadənin 1906-cı ildə Bakıda

* "Ədəbiyyat qəzeti"nin baş redaktoru.filologiya üzrə fəlsəfə doktoru,

"Həyat" qəzetində çap olunmuş "Türklər kimdir və kimlərdən ibarətdir" (Hüseynzadə, 2007: 41-70) məqaləsi təkcə Azərbaycanda deyil, bütün türk dünyasında türkologiyanın təşəkkülünə əsaslı təsir göstərib. Türkoloji Qurultayda da o, Türkiyəni təmsil etsə də, daha geniş miqyasda bütün türklərin ortaq mütəfəkkiri kimi iştirak etmişdir.

Mesaroş, Köprülü, Menzel, Hüseynzadə, Vittek və Bartold 1926-cı ildə gəmi ilə İstanbuldan Bakıya – Birinci Türkoloji Qurultaya bir yerdə gəlmişdilər.

Qurultayın beyin mərkəzi, aparıcı simaları da onlar idi. Qurultayda hamısı çıxış edib.

Əli bəy Hüseynzadə və Menzel isə, həm də gündəlik qeydlər yazıblar. Menzelin qeydləri Almaniyada nəşr edilib. 1927-ci ildə Bakı qəzetlərində professor Menzelin "Der 1. Turkologische Kongre in Baku" əsəri barədə məlumatlar dərc olunub. Amma Əli bəy Hüseynzadənin qeydləri yalnız 1969-cu ildə ortaya çıxıb və ilk dəfə 1970-ci ilin yanvar ayında "Yeni insan" dərgisində Hilmi Ziya Ülkenin təqdimatı ilə dərc olunub. (Ülken, 1969:7)

Hilmi Ziya "Türkiyədə çağdaş düşüncə tarixi" kitabında "1926-cı ildə Bakıda toplanan Birinci Türkoloji Konqresinə qatılan Hüseynzadə, bu konqresə aid qeydlər buraxmışdır... Bu qeyd dəftəri basılmamış olaraq kitabxanamızdadır" – yazır. (Ülken, 2011:269) Əlyazmasının taleyini 2009-cu ilin oktyabrında Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımdan soruşmuşdum. "Hilmi Ziya Ülkenin qızı Fatma Gülserendedir. Onun mənzilindəki salonda böyük bir sandıq var. Həmin sandıqdadır", – deyə cavab vermişdi.

Hilmi Ziya Ülkenin "Yeni insan" dərgisindəki "Ali Turan" yazısına istinadən, Əli bəy Hüseynzadənin Bakı Türkoloji Qurultayındakı qeydlərini 15 fevral 2008-ci ildə "Ədəbiyyat qəzeti"ndə təqdim etmiş və bildirmişdim ki, Hüseynzadənin qeydləri qurultayın 1926-cı ildə rusca nəşr olunmuş stenoqramını dolğunlaşdıran sənəddir. Məsələn, stenoqramda qeyd olunur ki, məruzədən sonra təbrikləri oxumaq üçün söz yoldaş Zifeldə və Çobanzadəyə verildi. Əli bəy isə xatırladır: "Çobanzadə Vilhelm Tomsenin Kopenhagendən göndərdiyi təbrik teleqrafını oxudu". (Hüseynzadə, 2008) Yaxud stenoqramın 6 mart 1926 tarixli səhifəsində "Кепрюлю-Заде выступает с докладом на турецком языке. (Аплодисменты)" (5, 2011:465) yazılıb.

Hüseynzadənin gündəliyində isə "Sonra təkrar Fuad Köprülü söz aldı. Konuşması radio ilə sokak xalqına eşitdirilirdi. Bu münasibətlə "Ərəb mədəniyyəti yox, islam mədəniyyəti, müsəlman millətlərin ortaq çalışmalarıyla meydana gəlmiş bir mədəniyyət vardır", – dedi". (Hüseynzadə, 2008) Yaxud tutaq ki, 1926-cı ildə – Türkoloji Qurultay günlərində çəkilmiş sənədli kadrlarda ziyafət masası arxasında Mustafa Quliyev, Ağamalıoğlu, Samoyloviç, Mesaroş, Əli bəy Hüseynzadə, Fuad Köprülü ilə yanaşı opera müğənnisi H.Sarabski də görünür. Onların bu ziyafət məclisində nədən danışdıqları heç bir sənəddə öz əksini tapmayıb. Əli bəy isə bu barədə yeganə və nadir məlumatı gündəlik qeydlərində verib, 1926-cı ildə çəkilmiş səssiz kinolentlərə "danışmaq" imkanı qazandırıb: "Ağamalıoğlu Mustafa Kamal Paşanın səhhətinə içdi. Sarabski musiqi ilə "Mustafa Kamal Paşa" şarkısını söylədi". (Hüseynzadə, 2008) Yaxud Hüseynzadə Qurultay nümayəndələrinin sayını və milli tərkibini də qeyd edib ki, bu say göstəricisi stenoqramda göstərilən say tərkibindən fərqlidir. "Qurultayda 127 üyə (nümayəndə) bulunmuş olub bunlardan 82-si türk (18 Azəri, 3 Anadolulu, 6 Krımlı 4 Türkmən, 13 Kazanlı, 5 Başqırd türkü və s. Doğu türklərindən Uyğur, Oyrat, Yakut və Çuvaş bulunmuşdur. İkinci qrup Moğol, Fin və Uğor qrupudur (3 üyə). Üçüncü qrup Yafəs qrupudur (ki burada Çərkəz, Çeçen, Qafqaz üyələrindən 6 kişi vardır). Dördüncü qrup İranlılardır (13 üyə). Beşinci qrup Avropalılardır (ki 3 Alman, 16 Rus, 3 Ukraynalı). Ayrıca iki Yəhudi ilə 5 əsllərini bilmədiyim kimsələr vardır". (Hüseynzadə, 2008)

Məsələ burasındadır ki, stenoramda çıxışçı, bəzən hətta məruzəçi kimi təqdim olunan elə iştirakçılar var ki, qurultay nümayəndələrinin siyahısı çap olunarkən onların adı göstərilməyib.

Bir sözlə, Hüseynzadənin bu qeydləri Türkoloji Qurultay barədə aydın təsəvvür yaradan nadir mənbədir.

Əli bəy Hüseynzadənin Qurultayda iştirakı, nümayəndələr arasında olması türkçülük baxımından Türkoloji Qurultayın ideoloji məzmununa təsir göstərirdi. Bunu Menzel də Qurultaydan bəhs edən kitabında qeyd edib. Menzelin yazdıqlarından məlum olur ki, Hüseynzadəyə məxsus milli triada Qurultayda da diqqət mərkəzində olub. Amma bu, stenoqramda nəzərə çarpmır. Menzel isə bildirir: "Hüseynzadə Türk dünyasının oyanışı üçün zəruri olan "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturunun

canlı bir abidəsi kimidir. Qurultaydakı hər müdaxilədə o, bu üç təməl sütun arasında tarazlığı qoruyub saxlayırdı... (Menzel, 1927:50,55)

Əli bəy Hüseynzadənin qurultayda məruzə etməsi həmin il nəşr olunan stenoqramda qeyd olunsa da, çıxışın mətni rusca nəşr olunan stenoqramda yoxdur. Hüseynzadənin məruzəsi barədə Menzel yazır ki, "Hüseynzadə Əli bəyin qərb müəlliflərinin əsərlərində “türk təsirlərini izləyən təqdimatı, qurultaydakı ən dərin və fəlsəfi çıxışlardan biri idi. O, ədəbiyyata sadəcə bir mətn kimi deyil, sivilizasiyalar arasında qarşılıqlı təsir sahəsi kimi yanaşmaqda ustalığını nümayiş etdirdi." (Menzel, 1927:28,31)

Türkoloji Qurultay günlərində Əli bəy Hüseynzadə Bakıdan İstanbula – ailəsinə 4 məktub – kartpostal göndərib. Bu məktublardan, xüsusən, həyat yoldaşı Ədhiyyə xanıma yazdığı məktubdan məlum olur ki, 1926-cı ilin mart ayında Bakıda nəşr olunan “Qərbin iki dastanında türk” əsəri Hüseynzadənin qurultayda söylədiyi məruzənin mətnidir. Doğrudur, indiyə qədər Menzelin qeydlərindən başqa heç bir qaynaqda Hüseynzadənin Qurultayda nələr danışdığı bəlli deyil. Yalnız Hüseynzadənin Ədhiyyə xanıma yazdığı məktubda məruzənin mətni barədə təsəvvürləri aydınlaşdıran məqamlar var: "Türkoloji Qurultay qapandı. Şimdi mənim söyləməklərim daha təfsilatlı olaraq bir kitab halında burada çap olunmaqdadır. Bir qaç günə qədər bitəcək". (Kartpostal, 1926:191) Bu məktubdan sonra tamamilə aydınlaşır ki, həmin günlərdə Bakıda nəşr olunmuş "Qərbin iki dastanında türk" əsəri Əli bəy Hüseynzadənin Türkoloji Qurultayda söylədiyi məruzənin mətnidir.

Yəhudi əsilli alman türkoloq, professor Teodor Menzel 1927-ci ildə nəşr etdirdiyi "Birinci Türkoloji Konqresindən qeydlər" əsəri barədə "Ədəbiyyat qəzeti"nin Türkoloji Qurultaya həsr etdiyimiz xüsusi buraxılışında da məlumat vermişdim. Menzel, ümumiyyətlə Hüseynzadə barədə, Birinci Türkoloji Qurultay kontekstində, gördüyümüz kimi, vacib, unikal fikirlər təqdim edir. Belə çıxır ki, Əli bəy Hüseynzadənin Türkoloji Qurultaydakı missiyasını ən dəqiq müşahidə edən Menzel olub. Menzelə görə, "Əli bəy Hüseynzadə Türkiyə nümayəndə heyətinin ən müdrik və ən sakit siması idi... O, Şərqin qədim mədəniyyətini Qərbin müasir fəlsəfəsi ilə mükəmməl şəkildə qarışdıran əsl humanistdir. Həm Şərq (İslam-Türk), həm də Qərb (Avropa) mədəniyyətlərini son dərəcə bilən, yüksək intellektual

dərinliyə malik bir şəxsiyyətdir". (Menzel, 1927: 12,14) Hüseynzadənin Qurultay prosesindəki davranışlarına da diqqəti cəlb edən Menzel yazırdı: "Əli bəy səsini qaldırmadan danışan, lakin hər cümləsi ilə diqqəti cəlb edən bir nüfuza sahib idi. Onun iştirakı qurultayın bəzən həddindən artıq siyasi atmosferinə akademik çəki və ləyaqət qatırdı." (Menzel, 1927:50, 55)

Qurultaya təqdim etdiyi məruzəsini, 1926-ci ilin iyununda İstanbulda İstiqlal məhkəməsində "Atatürkün mənqəbəsi" adlandırmışdı. Qəribə səslənsə də... Bakıda keçirilən Türkoloji Qurultay Moskvada Trotskinin vəzifədən uzaqlaşdırılmasından, Türkiyədə Şeyx Səid üsyanından bir il sonra, Atatürkə İzmir sui-qəsdindən bir ay əvvəl reallaşıb. Türkiyədə dinə ayqırı kimi görünən hallar – səltənətin yerinə Cümhuriyyət, fiqhin yerinə mədəni qanunlar, xilafətin yerinə dünyəvi dövlət, ardıyca da ərəb hərfinin yerinə latın əlifbası. Şəbəkə bu qədər sıx və iç-içədir. Bu mənada, Türkoloji Qurultayı təkcə dilçilik, etnoqrafiya, terminologiya, ədəbiyyat məsələləri baxımından deyil, eyni zamanda siyasi baxımdan təhlil etməliyik... Hətta Türkoloji Qurultaydan sonra açılmış İstiqlal məhkəməsində də dolayı yolla Türkoloji Qurultay xatırlanmışdı. Kazım Qarabəkir Paşa kimi bir istiqlal qəhrəmanının edamını istəyən məhkəmədə Əli bəy Hüseynzadə də 24 gün davam edən dindirilmələrdən sonra sərbəst buraxılmışdı. Hakim qarşısına çıxarılan Hüseynzadə İstiqlal məhkəməsində: "Mən Qazi Paşa həzrətlərinə hörmət və qiyməti daima izhar etdim... Mən Bakıda Qazinin mənqəbəsini nəşr edərkən bunlar burada sui-qəsd ilə məşğul imişlər. Mən milliyyətpərvər bir insanam, türkəm", – demişdi və diqqət yetirin, o, "Bakıda Türkoloji Qurultayda iştirak edərkən" (Turan, 2014: 270) demir, – "Mən Qazinin mənqəbəsini Bakıda nəşr edərkən..." – deyir. Əvvəldə xatırlatdığımız kimi, Bakıda Türkoloji Qurultayda söylədiyi və martın sonunda nəşr etdiyi "Qərbin iki dastanında türk" əsəridir. Məhz bu sözdən sonra hakim onun türklük qarşısındakı böyük xidmətlərini etiraf etmiş və məhkəmə salonundan Hüseynzadəni alqış sədaları altında yola salmışdılar...

Atatürkün mənqəbəsi – Atatürkün göstərdiyi fövqəladə hadisə deməkdir.. Bu mənada Türkoloji Qurultayın elmi mündəricəsi ilə yanaşı, onun ideoloji mahiyyəti daha da dərindən araşdırılmalıdır..

## ƏDƏBİYYAT

1. Əli bəy Hüseynzadə (2007). “Seçilmiş əsərləri” Bakı, “Şərq-Qərb”.
2. Hilmi Ziya Ülken (1969). “Türkçülügün və türk sosializminin babası Ali Turan” Yeni İnsan. Aralık. Sayı: 84.
3. Hilmi Ziya Ülken (2011). Türkiyede Çağdaş Düşünce Tarihi. Ülken Yayınları, İstanbul.
4. Əli bəy Hüseynzadənin Bakı Türkoloji Qurultayındakı qeydləri "Ədəbiyyat qəzeti" 15 fevral 2008
5. Первый Всесоюзный Тюркологический Съезд, Баку 2011. “Нагыл Еви”.
6. Menzel (1927). "Der 1. Turkologische Kongre in Baku" Der Islam, 1-ci say.
7. Bir foto dörd kartpostal (1926). “Ulduz”.
8. Azər Turan (2014). Əli bəy Hüseynzadə. LiterPress. Bakı.

*Азер Туран (Абилов) (Азербайджан)*

## Доклад Али бея Гусейнзаде на I Тюркологическом съезде, дневниковые записи, сделанные им в дни съезда, и высказывания Менцеля об Али бее Гусейнзаде в книге «Первый Тюркологический съезд»

### Аннотация

В статье анализируются доклад Али бея Гусейнзаде на I Тюркологическом съезде и дневниковые записи, сделанные им в дни проведения съезда. Также рассматриваются и комментируются высказывания немецкого тюрколога Менцеля об Али бее Гусейнзаде в его книге «Первый Тюркологический съезд». Особое внимание уделяется тому, в чём заключалась исключительная роль Али бея Гусейнзаде, избранного в почётный президиум съезда, в формировании идейных основ Тюркологического съезда. Отмечается, что Али бей Гусейнзаде и тюркологи, приехавшие вместе с ним в Баку для участия в съезде, являлись ведущими фигурами этого международного научного собрания. Наряду с дневниковыми записями Гусейнзаде рассматриваются также труды Менцеля, посвящённые Тюркологическому съезду. На основе показаний, данных Али беем Гусейнзаде после съезда в Стамбульском суде независимости, делается вывод о том, что в своём докладе на съезде

Али бей Гусейнзаде фактически разъяснял идеи Ататюрка. В этом смысле вывод статьи заключается в том, что наряду с научным содержанием Тюркологического съезда необходимо более глубоко исследовать его идеологическую сущность.

**Ключевые слова:** *Менцель, Гусейнзаде, тюркизация, исламизация, модернизация, Тюркологический съезд.*

*Azar Turan (Abilov) (Azerbaijan)*

## Ali bey Huseynzade's Report at the First Turkological Congress, his Diary Notes Written During the Congress, and Menzel's Writings about Ali bey Huseynzade in the Book Entitled "The First Turkological Congress"

## Abstract

Ali bey Huseynzade's report at the First Turkological Congress and his diary notes written during the Congress are analyzed in the article. As well as, the German Turkologist Menzel's writings about Ali bey Huseynzade in the book entitled "The First Turkological Congress" are commented. It draws attention to Ali bey Huseynzade's exceptional place, who was elected to the honorary presidium of the Congress, in preparing the ideological foundations of the Turkological Congress. It is stated that Ali bey Huseynzade and the Turkologists who came to Baku with him for participating in the Congress were the leading figures of this international scientific meeting. As well as, Menzel's writings about the Turkological Congress are considered besides with Huseynzade's diary notes. It is concluded on the basis of the statement given by Ali bey Huseynzade at the Independence Court in Istanbul after the Congress, that in fact Ali bey Huseynzade interpreted Atatürk's ideas in his report at the Congress. In this case, the result revealed from the article is that, the ideological essence should be researched more deeply besides with the scientific content of the Turkological Congress.

**Keywords:** *Menzel, Huseynzade, Turkification, Islamization, Modernization, the Turkological Congress.*